© *"Metafizika" Journal* | *p-ISSN 2616-6879*
*Vol 6, issue 2, serial 22, 2023. pp.110-131* | *e-ISSN 2617-751X*

**UOT:** 94.(479.24).
**KBT:** 63.3(0)6
**MJ №** 174

# Azərbaycan Xalq Cümhuriyyəti dövründə Ermənistan ilə Zəngəzur problemi (1919-1920-ci illərdə)

**Kamran Əsədov***

**Abstrakt.** Məqalədə məqsəd 1919-1920-ci illərdə Zəngəzur problemi və azərbaycanlı - erməni münasibətlərinə təkrarən nəzərdən keçirmək və tarixi, eləcə də müasir Azərbaycanın beynəlxalq əlaqələrdəki mövqeyini müəyyən etməkdir. Müasir Azərbaycanın Qərb ölkələrinə və beynəlxalq təşkilatlara inteqrasiyası, eləcə də digər faktorlar bu problemə yenidən baxmağı zəruri edir. Rus işğalı dövründə Azərbaycan xalqı etnik təmizləmə və ərazi itgisinə məruz qalmışdır. Bununla əlaqədar olaraq XIX-XX əsrlərə aid Azərbaycan tarixində etnik birlik, ərazi bütövlüyü və dövlətçilik ənənələrinin itirilməsi ilə əlaqədar anlar qalmışdır.

Dövrün tarixi şəraiti və Rusiyanın siyasi rəhbərliyinin Azərbaycan xalqına qarşı yönəlmiş deportasiyaları və məcburi ərazi təmizləmələri formaca müxtəlif olsa da, məzmunca eyni idi. Azərbaycan tarixşünaslığında bu mövzunun öyrənilməsi vacib əhəmiyyətə malikdir.

Mövzu ilə əlaqədar tarixi ədəbiyyatı 5 qrupa ayırmaq mümkündür:

1. Sovet Azərbaycanı tarixşünaslığı ilə əlaqədar tarixi məlumatlar;
2. Azərbaycanda nəşr edilmiş elmi işlər;
3. Müstəqilliyin bərpasından müasir dövrədək nəşr edilmiş əsərlər;
4. Xarici və immiqrasiya tarixşünaslığı əsərləri;
5. Jurnalistik məqalələr və internet resurslar.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə Zəngəzur məsələsi və azərbaycanlı - erməni konflikti Respublika təsisçilərinin xüsusi sənədləri, hesabatları, əsərləri, publisistik və xatirə yazılarında, eləcə də 1919-1920-ci illərdə Azərbaycanla Ermənistan arasındakı münasibətləri təhrif edən erməni tarixşünaslığında işıqlandırılmışdır.

**Açar sözlər:** Zəngəzur, tarixi Azərbaycan torpağı, Naxçıvan, Qarabağ

---

* AMEA Abbasqulu Ağa Bakıxanov adına Tarix İnstitutunun əyani doktorantı; Bakı, Azərbaycan
E-mail: kamranesedov@bk.ru
https://orcid.org/0000-0003-1115-3566

**Məqaləyə istinad:** Əsədov, K. [2023] Azərbaycan Xalq Cümhuriyyəti dövründə Ermənistan ilə Zəngəzur problemi (1919-1920-ci illərdə). *"Metafizika" jurnalı. 6(2),* səh. 110-131.

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 15.05.2023*
*Təkrar işlənməyə göndərilmişdir: 30.05.2023*
*Çapa qəbul edilmişdir: 06.06.2023*

## 1.Giriş

XIX əsrin sonlarından başlayaraq erməni millətçi təşkilatları Azərbaycanın əzəli torpaqları olan Qarabağ, Naxçıvan və Zəngəzur bölgələrinə yiyələnmək üçün cəhdlər göstərirdilər. Erməni millətçiləri Azərbaycan Xalq Cümhuriyyəti (AXC) yarandıqdan sonra Azərbaycanın daxili və xarici aləmində yaranmış mürəkkəb və ziddiyyətli vəziyyətdən istifadə edərək özlərinin "Böyük Ermənistan" yaratmaq ideyasını həyata keçirmək üçün yenidən geniş fəaliyyətə başlamışdılar. Bu istiqamətdə onların ilk hədəfi Zəngəzur və Qarabağı ələ keçirmək idi. Ancaq Azərbaycan hökumətinin barışmaz mövqeyi ermənilərin planlarının gerçəkləşməsinə imkan vermədi. Azərbaycan üçün çətin və mürəkkəb olan 1918-ci ildə yalnız Türkiyə dövləti onun ərazi bütövlüyünün və suverenliyinin qorunmasında ilk gündən respublikamıza hərtərəfli siyasi və hərbi yardım göstərmişdir. Bu yardım erməni millətçilərinin və onların havadarları olan bolşeviklərin xalqımızın tarixi taleyi üçün təhlükəli cəhdlərin həyata keçirilməsinə mane olmuşdur.

1919-cu ilin payızı-1920-ci ilin baharı arasındakı müddətdə Zəngəzur bölgəsi və onun müsəlman əhalisi öz tarixinin ən ağır çağlarından birini yaşamağa məcbur oldu. Müəyyən proses və hadisələrə görə bu dövrü də aşağıdakı mərhələlərə ayırmaq olar;

a) Ermənistanla Azərbaycan arasında müvəqqəti sazişin imzalanması və birincinin Zəngəzurda irimiqyaslı hərbi əməliyyatlara başlanılması ərəfəsi;

b) müvəqqəti sazişdən sonra bölgədəki hərbi-siyasi vəziyyət, xüsusilə də erməni nizami qoşun hissələrinin hücumlarının (onları da üç yerə bölmək olar: 1919-cu il noyabrın sonları dekabrın əvvəlləri; 1920-ci il yanvarın ikinci yarısı, 1920-ci ilin mart-apreli) Azərbaycan ordusu və yerli müsəlman əhalisi (könüllülər - partizan dəstələri) tərəfindən dəf olunması.

Birinci mərhələ əsasən yerli ermənilərin azərbaycanlılar yaşayan kəndlərə qarətçi basqınları, Ermənistanın Zəngəzura növbəti və daha geniş miqyaslı döyüş əməliyyatlarına hazırlıq tədbirləri, o cümlədən onların təbliğat-ideoloji təminatı (xüsusilə də mətbuat vasitəsilə), diplomatik gedişləri (Versal konfransına, Qərb dövlətlərinin Qafqazdakı nümayəndəliklərinə təsir göstərilməsinə cəhdlər, "mübahisəli məsələlərin həlli" məqsədilə konfrans keçirilməsi təşəbbüsü), habelə ADR hökumətinin bölgədə qayda-qanun yaratmaq, yəni Ararat Respublikası tərəfindən təşkil və müdafiə olunan erməni qiyamlarının yatırılması istiqamətindəki hərbi-siyasi səylərilə səciyyələnir.

Bölgədəki yerli erməni silahlı dəstələrinin basqınları sentyabrın əvvəllərindən etibarən yenidən yolladığı 1919-cu il 26 sentyabr, X.Sultanovun isə öz növbəsində ARD-in DİN-ə və "Azərbaycan "qəzetinə verdiyi 1919-cu il 23 sentyabr və 2 oktyabr tarixli məlumatlarından [Paşayev, 2007, s.4] aşağıdakı faktlar aşkarlanır: Xozabürt ermənilərinin Müsəlmanlar kəndinin sakinlərini atəşə tutmaları; Şixayz, Tsav, Kilsəkənd, Şişgərd ermənilərinin sentyabrın 7-də Şüküratar yaylağındakı azərbaycanlı elatlardan iki nəfərini öldürərək 2500 mal - heyvanını ələ keçirmələri Muğançı kəndində yaşayan ermənilərin Davutlu müsəlman kəndi sakinlərinin evlərini yandırmaq cəhdlərinin ciddi müqavilə qarşılaşması; Zeyvəli ermənilərin ayın 9-da Zor müsəlman kəndinin müdafiə mövqelərinə basqını və onun gedişində bir erməninin öldürülməsi qeyd edilirdi.

"Azərbaycan qəzeti" (türkcə) "Zəngəzur müsəlmanların halı" başlıqlı məqaləsində oktyabrın 12-də 80 nəfər Zəngəzur qaçqını ilə birlikdə Bakıya gələn M.Əlibəyovun faktlarına əsasən belə bir ümumi məlumatı diqqətə yetirirdi ki, Türkiyə hərbi hissələrinin bölgənin tərk etmələrindən keçən müddət ərzində bu mahalın 110 müsəlman kəndi dağıdılmış, onlardan 70-ə qədərinin əhalisi tamamilə qırılmışdır, sağ qalaraq qaçqın salınanların isə 85%-i ölümə məhkumdur [Seyidov, 2008, s.5].

Fikrimizcə, bu basqınların əslində Zəngəzur ermənilərinin və onlara siyasi-hərbi yardım göstərən rəsmi İrəvanın bölgədə müharibəni yenidən qüvvətləndirmək planlarının hazırlıq mərhələsi kimi qiymətləndirmək olar. ADR-in Gürcüstandakı diplomatik nümayəndəsi müavinin Ə.Topçubaşova ünvanladığı 1919-cu il 22 noyabr tarixli, 4609 saylı dərin təhlilli bir məlumatda [Paşayev, 2007, s.3] da qeyd edildiyi kimi, Ermənistan hökuməti oktyabrın ikinci yarısında Zəngazur qəzasında üsyançılıq hərəkatının təşkilinə, bu məqsədlə də oraya hərbi hissələr, pulemyotlar və artilleriya göndərilməsinə başladı.

ADR-ın İrəvandakı diplomatik nümayəndəliyinin başçısı əvəzi M.Mirbabayevin məlumatlarından isə bunlar aydınlaşır: Dro Zəngəzurdakı bütün erməni silahlı qüvvələrinin komandanı, Bakının "keçmiş qəhrəmanı" general Qazarov isə onun köməkçisi təyin edilmişdilər; yeni alayların təkili üçün Ermənistandan 4 rota və xeyli zabit, 3 dağ və 2 səhratopu göndərilmiş Şrus zabitinin komandanlığı altında 8 pulemyotlu yeni rota hazırlanmışdı; Naxçıvan və Şərur savaşlarında olduğu kimi burada da Ermənistandan gətirilən döyüşçülər arasında fərarilik halları çoxalmışdı; Ddonu komandan təyin edən Ermənistan hökuməti, bir tərəfdən Zəngəzurda gedən proseslər və baş verən hadisələrlə heç bir əlaqəsi olmadığını bildirirdi, digər tərəfdən isə Xatisyan deyirdi ki, *"Zəngəzurun əhalisi Nikolay dövrünün əsgərləri*

*olduqlarından biz onlardan alaylar təşkil etmək üçün zabitlər göndərmişdik”* [Ermənilər Zəngəzurdan izimizi silirlər, 2006, s.9].

Ermənistanın Zəngəzur ermənilərini ADR hökumətini tanımamağa təhrik edən müxtəlif səpgili və çoxsaylı hərəkətləri, buradakı qiyamçı silahlı qüvvələri açıq-aşkar siyasi-hərbi cəhətdən ucbatından Azərbaycan rəhbərliyi Qarabağ general - qubernatorunun sərəncamına verilən məhdud miqdarda qoşun hissəsini general-mayor C.Şıxlinskinin komandanlığı altında 1919-cu ilin oktyabrın sonlarında bölgəyə göndərdi. ADR hökumətinin xüsusi məlumatında [Rüstəmli, 2005, s.6] da qeyd edildiyi kimi, o, Ermənistana qarşı hər hansı bir düşmənçilik hərəkətinə yol vermək üçün deyil, yalnız bölgədəki erməni silahlı quldur dəstələrinin özbaşınalıqlarına son qoymaq, burada qayda-qanunu və dinc əhalinin təhlükəsizliyini təmin etmək, müsəlman kəndlərinin hələ də dağıdılmasının qarşısını almaq və qaçqınları öz torpaqlarına qaytarmaq məqsədilə bölgəyə kiçik hərbi hissə (arxiv sənədlərində “Zəngəzur dəstəsi” kimi də gedir) göndərmək məcburiyyətində qalmışdı.

ADR hökuməti tərəfindən bu barədə müxtəlif beynəlxalq təşkilat və forumlara, Qərb dövlətlərinin Qafqazdakı nümayəndəliklərinə vaxtında və ətraflı məlumatlar verilməsinə baxmayaraq ermənilər bununla əlaqədar “Azərbaycanın Zəngəzur ətrafında fitnələri” adı altında ideoloji-təbliğat və siyasi-diplomatik hay-küy qaldırırdılar [ARDA: f. 11, siy. 2, iş 791, vər.92, s.92]. İdeoloji-təbliğat hayküyünün mahir ustaları kimi tanınan (bunu o illərdə bölgədə olan bir sıra Qərb jurnalistləri: S.Liddel və b. da dəfələrlə təsdiqləmişdilər) [Xəlilzadə, 2007, s.2] ermənilər mətbuatda (istər milli, istərsə də dünya) ADR-ın daxili və xarici siyasətinə, konkret isə onun bu addımına qarşı ifrat böhtanlat yağdırdılar.

“Daşnaksyutun” partiyasının İrəvanda çıxan orqanı - “Araç” qəzetinin Zəngəzurla bağlı hədələyici bir tərzdə yazdığı fikirləri [Rüstəmli, 2005, s.6] ümumiləşmiş şəkildə aşağıdakı kimi ifadə etmək olar:

a) Azərbaycanın Zəngəzur ətrafındakı fitnələri daha fəal səciyyə daşımağa başlayır və iki ölkə arasındakı münasibətlərə, Qarabağ və Zəngəzurun erməni - azərbaycanlı kütlələrinin qarşılıülı əlaqələrinə təhlükə yaradır;

b) zorakılıq və xəyanət yolu ilə Qarabağı fəth edən Sultanov öz cinayətkar siyasətini indi Zəngəzura keçirmişdir və həmin vilayəti ələ keçirmək üçün heç nədən çəkinməyəcəkdir;

v) Zəngəzur kəndliləri (ermənilər nəzərdə tutulur) sultanovların əsarətinə düşməyə, Ermənistan isə ayrılmaz hissəsi olan bu bölgənin azərbaycanlı əsgərlər tərəfindən tutulmasına heç vaxt razı olmazlar;

q) bütün Ermənistan özünün döyüş və mənəvi vasitələrilə Zəngəzurla birlikdə olacaqdır, İrəvanda hansı hökumətin mövcudluğundan asılı olmayaraq bizim üçün həmin mahal üzərində hakimiyyət Ermənistanın müstəqilliyinin zəruri şərtidir, heç bir şəraitdə o bu bölgədən imtina edə bilməz. Və Azərbaycanın Zəngəzura dair hər hansı bir niyyəti Ermənistanın müstəqilliyinə qəsd kimi qəbul olunmalıdır;
d) Azərbaycanın bu sahədəki siyasəti iki dövlətin toqquşmasına aparır və o özünün belə siyasətinə son qoymalı, Zəngəzuru sakit buraxmalıdır.

Bütün bu yalanlar və böhtanlara ADR hökumətinin çoxlu diplomatik və hərbi sənədlərində, Respublika mətbuatının, xüsusilə də "Азербайджан" qəzetinin səhifələrində ["Azərbaycan" qəzeti, 1919, s.52] əsaslı və inandırıcı cavablar verilirdi. ADR özünün, əvvəldə toxunduğumuz, hökumət məlumatında onun dövlətçiliyinə düşmən kəsilən mətbuatın bu cür xəbərlərinin həqiqətə uyğun gəlmədiyini, qərəzli səciyyə daşıdığını göstərmiş, onların təzkib olunmasına yönəldilmiş aşağıdakı faktları [Ermənilər Zəngəzurdan izimizi silirlər, 2006, s.8] aşkarlamışdı. Zəngəzurda erməni silahlı qüvvələri tərəfindən pozulan qayda - qanunu bərpa etmək niyyətilə bölgəyə göndərilən hərbi hissə Gorusun 20 verstliyindəki Dığ kəndi qarşısında-Zabıx dərəsindəki düzənliyə daxil olarkən möhkəmləndirilmiş mövqelərlə rastlaşaraq atəşə tutulmuş, Abdallar kəndi yaxınlığında hücuma məruz qalmışdı.

Buna görə də bu hərbi hissə erməni silahlı qüvvələrilə toqquşmağa məcbur olmuş, Dığ yaxınlığında bir nəfər yaralanmış, Xoznavar kəndində bir nəfər ölmüş, dörd nəfər yaralanmış, Xanavakda isə ölən və yaralananlarla birlikdə on nəfər itki verilmişdi. Lakin həmin döyüşlərdə Azərbaycan ordusu əsgərlərinin qəhrəmanlıqları sayəsində Xoznavar və Keçəldağ yaxınlığındakı döyüşdə 40, Dığın qarşısında isə 30 erməni məhv edilmişdi.

Bölgəyə göndərilən dəstə ilə erməni silahlı qüvvələri arasında 1919-cu il noyabrın 3-7-də baş verən toqquşmaların səbəbi və xarakteri Zəngəzur dəstəsinin rəisi, general- mayor C.Şıxlinskinin ADR-ın hərbi nazirinə ünvanlanan raportunda [ARDA: f. 970, siy. 1, iş 161, vər.1, s.1] da açıqlanmışdı. Buradan göründüyü kimi, ermənilər bu müddətdə təkcə Dığ və Gorus rayonlarında 6000 nəfər canlı qüvvəyə, dörd qaubitsaya və iki topa, 200-300 nəfərlik nizami süvari dəstəsinə, təcrübəli komandir heyətinə malik olmuş, son üç ayda əməlli-başlı hazırlaşmışdılar.

C.Şıxlinskinin həmçinin bölgədəki Azərbaycan silahlı qüvvələrinin vəziyyəti və imkanları ilə bağlı hərbi nazirə çatdırdığı ətraflı, obyektiv məlumatlar aşağıdakı kimi qruplaşdırıla bilər:

*“Metafizika” Journal*
*2023, vol 6, issue 2, serial 22, pp.110-131*

a) öz relyefinə və yolların olmamasına görə Dığ-Gorus rayonunun döyüş təlimləri və əməliyyatları üçün çətinlik yaratması;

b) Zəngəzur dəstəsinin tərkibi, təşkili və döyüş hazırlığındakı nöqsanlara görə (piyadaların komandir heyətinin döyüş təcrübəsi və zəruri biliklərə malik olmamaları, hətta bəzi batalyon komandirlərinin işə yaramamaları və onların kimlərləsə əvəz edilməsinin qeyri-mümkünlüyü, əsgərlərin də döyüş üçün zəif hazırlıqları) erməni silahlı qüvvələrinin özbaşınalıqlarına son qoyulması və qayda-qanunun bərpası vəzifəsinin həlli baxımından zəifliyi;

v) yerli əhalidən təşkil olunan partizan dəstələrinin hərbi cəhətdən elə bir əhəmiyyət kəsb etməmələri. Çünki onlar da təcrübəli başçılara malik deyildilər, ərzaq məsələlərilə əlaqədar döyüşdə 3-4 gündən artıq qala bilmirdilər və az miqdarda olan güllələri qeyri-məhsuldar işlədirdilər. İgid və təcrübəli Sultan bəyin kürdlərdən ibarət dəstəsinin (sözgəlişi qeyd edək ki, general - qubernator X.Sultanovun vəsatətinə [“Azərbaycan” qəzeti, 1919, s.5] əsasən hərbi nazir tərəfindən gizirlər məktəbində yalnız kürdlər üçün xüsusi qısa müddətli kurslar açılmışdı) partizan bölümlərinə nisbətən mütəşəkkil təşkil olunması, amma onların da təchizatının yarıtmazlığı, çoxlu güllə sərf etmələri və öz kəndlərindən 3-4 gündən artıq ayrıla bilməmələri;

q) bəzi uğursuzluqlara və həddən artıq yorğunluğa görə qoşunlarda ruh yüksəkliyinin aşağı düşməsi;

d) bazanın 40 verst uzaqlığına görə yaralıların və xəstələrin köçürülməsinin olduqca çətinliyi, kiçik sanitar personalının azlığı (dəstədə 200 nəfərə yaxın), binaların və qanın çatışmaması.

Zəngəzur dəstəsinin rəisi özünün bu tutarlı dəlillərinə əsaslanaraq hərbi nazirliyə bu kimi mülahizə və təkliflərini də bildirmişdi: dəstənin Dığ və Gorusa irəliləməsi onu bazadan uzaqlaşdırmağa, uğursuzluğa düçar olunarsa, çətin vəziyyətə sala bilər; onun döyüş qabiliyyətinin müvəqqəti də olsa itirilməsi isə düşməndə ruh yüksəkliyi və fəallıq yaradar, bu da Qarabağın erməni əhalisinə keçər, nəticədə arxada və dəstənin zəifliyi üzündən etibarlı qoruya bilməyəcəyi yolda hərbi əməliyyatlara gətirib çıxarar; Dığ və Gorusu tutmağa cəhd etmək olar, ancaq bu məntəqələri əldə saxlamaq üçün dəstəni, tərkibində 3 batalyon olan, piyada alayı ilə qüvvətləndirmək lazımdır.

ADR hökumətinin Zəngəzurda erməniləri qayda-qanuna riayət etməyə yönəldilən tədbirləri barəsində qaldırılan ideoloji-təbliğat hay-küyü “Azərbaycan” qəzetinin bir çox yazıları, xüsusilə “Zəngəzurda daşnaklrın fitnələri” başlıqlı material [“Azərbaycan” qəzeti, 1919, s.6] tərəfindən də tutarlı cavabını almışdı. Bir sıra erməni qəzetlərinin böhtanlarını inandırıcı surətdə təzkib edən həmin materialın ən əhəmiyyətli cəhəti “Araç”ın

Zəngəzuru Ermənistanın tərkib hissəsi saymasına aid fikirlərinin etnoqrafik, tarixi və coğrafi nöqteyi-nəzərdən tamamilə əsassızlığını bir daha sübuta yetirməsidir. Burada yazılırdı ki, vaxtı ilə Andranikin və hazırda isə onun ardıcıllarının yüzdən çox müsəlman kəndini dağıdıb, əhalisini vəhşicəsinə qırmaları da ermənilərin bölgədə etniki üstünlüyə nail olmalarına imkan verməmişdir.

Qəzet ermənilərin bu cür hərəkətlərinin təkcə Zəngəzurda baş vermədiyini xatırladır, keçmiş İrəvan quberniyası müsəlmanlarının Qafqazdakı Amerika nümayəndəliyinin başçısına verdikləri Memoranduma və oradakı siyahıya əsasən müxtəlif vaxtlarda həmin bölgədə və Qars vilayətində onlar tərəfindən 88 müsəlman kəndinin dağıdılmasını, 1820 evin yandırılmasını və 131930 nəfərin öldürülməsini [Seyidov, 2008, s.5] bir daha daşnak ideoloqlarının diqqətinə çatdırırdı. O habelə "Araç"ın Vedibasar hadisələrinin Zəngəzurda da təkrarlanması istəyini, Şərur-Naxçıvan kimi onun da öz hüquqlqrını qorumağa qadir olduğunu vurğulayırdı.

Ən maraqlı cəhət isə qəzetin ermənilərə Zəngəzurun tarixən Azərbaycan torpağı olmasına əminlik hasil etmələri üçün Tatev monastrında saxlanılan sənədləri yaxşıca araşdırmaları, onların bölgədə yaşayan soydaşlarının mənafelərinin müsəlman hakimləri tərəfindən uzun müddət və göz bəbəyi kimi qorunmasını bilmələri tövsiyyəsi idi. Bu materialda ermənilərin Zəngəzura dair seperatçılıq əməllərinin qarşısının alınmasına yönəldilən tədbirlərdən biri olaraq, Gorus Milli Şurasının ləğvinin vacibliyi, bunun bölgədə (necə ki, Qarabağda) əmin-amanlıq yaradacağı göstərilirdi. "Azərbaycan" qəzeti xüsusi müxbirinin gedən belə bir məlumatı da olduqca əhəmiyyətlidir ki, Zəngəzurdakı bəzi erməni kənd cəmiyyətləri Azərbaycanın hakimiyyətini tanımağı qətiyyətlə qərara almışdılar. [ARDA: f. 894, siy. 10, iş 81, vər.10, s.5]

**2.Zəngəzurda törədilən vəhşiliklər**

Azərbaycan hökumətinin Zəngəzurda ermənilərin ucbatından yaranan hərc-mərcliyi aradan qaldırmaq məqsədilə oraya hərbi hissə göndərməsini onun daxili işlərinə müdaxilə və dinc əhaliyə qarşı silahlı əməliyyatlar aparılması kimi qələmə verən Ermənistan Qafqazın hüdudlarından da kənara çıxan beynəlxalq diplomatik qalmaqal saldı. Onun hökuməti əvvəlcə Azərbaycan rəhbərliyinə qarşı diplomatik tədbirlər gördü, paralel surətdə isə öz planlarını pərdələyən təşəbbüslərlə çıxış etdi və "vasitəçilik" adı altında ADR-ə beynəlxalq təzyiq göstərilməsinə çalışdı [Seyidov, 2008, s.11].

Hələ 1919-cu ilin sentyabrında-Zəngəzurdakı müsəlman kəndlərinə basqınların gücləndiyi bir dövrdə onların təşkilində hərtərəfli iştirak edən Ermənistan bu bölgəyə dair iddialarına yeni təkan vermək üçün bəhanələr

axtararaq bəzi “təkliflər” də irəli sürdü. Belə ki, həmin il sentyabrın 28-də Azərbaycanın İrəvandakı diplomatik nümayəndəsinin Ermənistanın Baş haziri Xatisyanla görüşü [Ermənilər Zəngəzurdan izimizi silirlər, 2006, s.6] zamanı daşnak tərəfi ilk növbədə Şərur-Naxçıvan və Zəngəzur bölgələri məsələlərinin müzakirəsini zəruri sayıb, ərazi problemlərinin dinc yolla nizama salınması ilə əlaqədar erməni-azərbaycanlı konfransının keçirilməsini təklif etdi. Bu zaman ikinci bölgə ilə bağlı (birinci ilə əlaqədar əvvəldə bəhs olunmuşdur) səfir belə mövqe tutmuşdu; biz Zəngəzur qəzasını ərazimizin ayrılmaz hissəsi hesab edirik və ona aid məsələ Sülh Konfransının səlahiyyətinə daxildir. Hazırda orada tam qayda-qanun var və ermənilərin taleyinə görə narahat olmağa dəyməz, qaçqınları isə hökmən öz yerlərinə qaytarmaq lazımdır.

Həmin görüşlərdəki fikir mübadiləcinin ardınca Ermənistan XİN-yi iki Respublika arasındakı aydınlaşdırılmamış bütün məsələlərin həlli üçün xüsusi müşavirə keçirilməsi təklifi barədə ADR-in xarici siyasət idarəsinə 1919-cu il 7 oktyabr tarixli rəsmi məktubla [ARDA: f. 894, siy. 7, iş 21, vər. 53. s.6] müraciət etmişdi. Məktubdan görünür ki, erməni tərəfi bu müşavirədə aşağıdakı məsələlərin müzakirəsini məsləhət bilmişdi:

1) problemlərin Sülh konfransı tərəfindən həllinədək respublikalar arasında müvəqqəti sərhəd (demarkasiya) xətlərinin müəyyənləşdirilməsi;
2) qaçqınlar məsələsi;
3) iki dövlətin arasında ticarət, dəmiryolu konvensiyalarının başlaması və.s.

Bu arada Ermənistanın Bakıdakı diplomatik nümayəndəsi Bekzadyan erməni-azərbaycanlı konfransı ilə əlaqədar 1919-cu il oktyabrın 12-də N.Yusifbəyovla və sabahısı gün isə M.Cəfərovla görüşərkən ərazi mübahisələrilə bağlı məsələlərə toxunmuşdu [Eloğlu, 1992, s.87]. Erməni tərəfinin konfrans çağırmaqda Zəngəzur və Naxçıvana yiyələnmək niyyətini duyan ADR rəhbərliyi artıq Qarsın, İrəvanın, Eçmiədzin qəzasının güzəştə gedildiyini xatırlamaqla digər əzəli Azərbaycan torpaqlarının, yəni Qarabağ, Naxçıvan və Zəngəzurun ona mənsubiyyəti barədə söhbətin belə ola bilməməsini vurğulamışdı. Bekzadyanın Zəngəzurla bağlı “rahatsızlığı” ilə əlaqədar isə deyilmişdi ki, bu bölgənin ¾ hissəsi bizim hakimiyyətimiz altındadır, nümayəndələrimiz oranın erməni əhalisilə danışıqlar aparır və hətta qüvvə işlətmədən də razılıq əldə oluna bilər.

ADR-in XİN-yi də öz növbəsində Ermənistan XİN-in 1919-cu il 7 oktyabr tarixli məktubuna 1919-cu il 26 oktyabr tarixli cavabında [Paşayev, 2007, s.6] mübahisəli məsələlərin danışıqlar yolu ilə həllinə tərəfdar çıxdığını, cari

ilin aprelində başlanan Ümumqafqaz konfransının yarımçıq qalmasına (bu işdə erməni tərəfinin təqsiri çox idi) təəssüfləndiyini bildirirdi.

ADR hökumətinin Zəngəzura məhdud qoşun hissəsi göndərməsini vəziyyəti kəskinləşdirmək cəhdi kimi qiymətləndirən və əslində isə bundan istifadə edib mübahisəli məsələlərin müxtəlif səviyyələrdə gedən müzakirələrini pozmağa çalışan, bununla da bölgədəki hərbi qarşıdurmanı qüvvətləndirməklə siyasi durumu gərginləşdirən Ermənistanın diplomatik gedişlərinə cavab verilməsi, ilk növbədə isə, əsassız dəlillərin - iddiaların bir daha təzkib və rədd olunması lazım gəlirdi. Bu xəttə müvafiq surətdə hökumət və hərəkətinin motivlərini bir sıra beynəlxalq təşkilatlara və məclislərə [AXC Parlamenti, stenoqrafik hesabatlar, 1998, s.56] (ADR XİN-in, onun Tiflisdəki diplomatik nümayəndəliyinin Paris konfransına və Azərbaycan nümayəndə heyətinin sədrinə 1919-cu il 22 noyabr tarixli məktubu və digər sənədlər, N.Yusifbəyovun müttəfiqlərin Qafqazdakı Ali komissarının müavininə müraciəti) yenidən açıqlamaq məcburiyyətində qaldı.

Azərbaycan hökuməti həmin sənədlərdə 1919-cu il noyabrın 1-i ilə 11-i arasında (bəzi materiallarda 3-7-si ərzində göstərilir, digərlərində isə 8-dən etibarən dayanması yazılır) bölgədə əhəmiyyətsiz silahlı toqquşmaların baş verməsini bildirməklə yanaşı oraya hərbi dəstə göndərilməsilə bağlı mövqeyinin ədalətli olmasını sübuta yetirən bu kimi prinsip- dəlilləri də qeyd etmişdir.

a) Zəngəzurun tarixi, etnoqrafik, iqtisadi və coğrafi baxımlardan Ermənistana deyil, Azərbaycana aid olması, bunlara görə də onun həm Qafqazdakı ingilis komandanlığı, həm də Haskel tərəfindən ADR-in ərazisi kimi tanınması. Bu zaman çox düzgün olaraq belə tarixi faktlar vurğulanmışdı: Tomson Zəngəzur qəzasının da daxil olduğu general-qubernatorluğa azərbaycanlının başçı təyin edilməsinə razılıq vermişdi; Azərbaycanın Zəngəzur qəzasına hüquqlarını şəksiz təsdiqləyən Haskel Naxçıvan bölgəsində neytral zona yaradılmasına dair onunla ADR hökuməti arasındakı sazişin şərtlərindən birində Zəngəzurda bu respublikanın hakimiyyətinin yaradılmasına mane olmamağı Ermənistan rəhbərliyindən tələb etmiş, erməni tərəfinin bu qəzanın da bitərəf zonaya qatılması barədə təklifilə isə razılaşmamışdı;

b) Ermənistanın öz öhdəliklərini yerinə yetirməyərək Zəngəzura nizami qüvvələr və silah göndərməklə bölgədə ADR əleyhinə üsyançılıq hərəkatını təşkil etməsi;

v) qəzanın hüdudları daxilində qayda-qanunun bərpası və habelə yaxın keçmişdə erməni quldur dəstələri tərəfindən dağıdılan 120 kəndin 60000

qaçqın müsəlman əhalisinin öz yerlərinə qaytarılması niyyəti və.s [Seyidov, 2008, s.2].

Bütün bu və başqa amillərə görə Azərbaycan hökuməti Zəngəzuru özünün əzəli ərazisi saydığını növbəti dəfə təkrarlamış, bölgəyə silahlı qüvvə göndərməyə mənəvi bə hüquqi əsası olduğunu, hazırda orada hər hansı bir hərbi əməliyyatın getmədiyini, Ermənistan rəhbərliyinin Gürcüstanın Bakı və İrəvandakı səfirləri vasitəsilə ADR-ə çoxlu xahişlərini, İngiltərə və ABŞ-ın Qafqazdakı nümayəndələri Uordron və Reyin istəklərini nəzərə alıb X.Sultanova təqiblərə əl atmamağı tapşırdığını da bildirmişdi. O həmçinin qonşu dövlətin Zəngəzura münasibətdə Haskel tərəfindən müəyyənləşdirilən öhdəliklərinə əməl edəcəyinə inandığşnı göstərmişdi.

**3.Zəngəzurda tarixi faciələr**

Ermənilər Qərb dövlətlərinin regiondakı nümayəndəliklərini, Gürcüstanın Azərbaycandakı səfirini də Zəngəzurdakı son hadisələrlə bağlı saldıqları qalmaqala qatmışdılar. Bekzadyan, Tiqranyan və Papazyan noyabrın birinci yarısında Uordropun, Reyin, habelə Fransanın, İtaliyanın və Denikinin nümayəndələrinin qəbulunda olmuş, hətta Batumdakı ingilis qüvvələrini Zəngəzura yeritmək barədə Reyə təklif vermiş, əks halda orada hərbi əməliyyatlara başlayacaqlarını bildirmişdilər [Rüstəmli, 2005, s.2].

ADR-in Gürcüstandakı diplomatik nümayəndəsinin hökumətinin XİN-ə ünvanladığı 1919-cu il 30 oktyabr tarixli məlumatından göründüyü kimi, oktyabrın 28-də qəbul edən Uordrop Zəngəzurda qanlı toqquşmaların baş verə biləcəyindən, bölgədəki sabitliyin pozulması hallarının Transqafqaz respublikaları məsələsinin Sülh konfransı tərəfindən həlli ərəfəsində arzuolunmazlığından bəhs etmiş, Azərbaycan rəhbərliyindən qarmaqarışıqlıqların qarşısının alınması üçün tədbirlər görülməsi xahişində bulunmuşdu [Eloğlu, 1992, s.98]. Səfir isə Ermənistanın Zəngəzurda qiyam qaldırmaq məqsədilə oraya əsgəri qüvvə, silah göndərdiyini və hər cür toqquşmaların qarşısının alınması üçün Azərbaycan tərəfindən tədbirlər görüldüyünü, əmin-amanlığın saxlanılacağını Uordropa çatdırmışdı.

Bizcə, 1919-cu ilin noyabrını ermənilərin Zəngəzura dair növbəti fitnələrilə bağlı fəal və gərgin diplomatik qarşıdurma, müxtəlif səpgili çoxlu yazışmalar, görüşlər və sazişlər ayı kimi də səciyyələndirmək olar. Hələ Zəngəzur məsələsinin yenidən kəskinləşməsinədək tərəflər 1919-cu il noyabrın 2-də Bakıda konfrans çağırılmasını razılaşdırmışdılar. Onun ardınca isə noyabrın 12-də T.Bekzadyan konfransın bu ayın 20-də Bakıda keçirilməsinə öz hökumətinin razılığını M.Cəfərova yetirmişdi [ARDA: f. 894, siy. 10, iş 81, vər.10, s.15].

Lakin çox maraqlıdır ki, Ermənistan elə həmin gün, yəni noyabrın 12-də Azərbaycana verdiyi notada ["Azərbaycan" qəzeti, 1919, s.65] öz nümayəndəsini həmin konfransa göndərməyəcəyini bəyan etmişdi. O öz mövqeyini ADR-ın qoşunlarını erməni Zəngəzuruna göndərib oranı zorla tutmaq istəməsi ilə müharibəyə başlaması, bunun isə gözlənilən ikitərəfli müzakirələrin məqsəd və vəzifələrinə zidd olması ilə əsaslandırmağa, əməliyyatların dayandırılmayacağı halda qanlı hadisələrin gələcək inkişafı və onların acı nəticələrinin məsuliyyətini Azərbaycanın üzərinə atmağa çalışmışdı.

Ermənilərin siyasi toqquşmaların çərçivəsini genışləndirmək səyləri, habelə regionda vəziyyətin yenidən ciddi surətdə ağırlaşmasının mümkün nəticələri və.s. görə Qərb dövlətlərinin Qafqazdakı nümayəndəliklərin diplomatik fəallığı da xeyli qüvvətləndi. J.Nəsibbəyova və Xatisyana ünvanlanan əsasən eyni məzmunlu-Zəngəzurdakı kəskin hərbi durumla bağlı narahatlıq ifadə edən - teleqramlarda [Eloğlu, 1992, s.65] (Uordropun 1919-cu il 13 noyabr və 16 noyabr, Reyin isə 14 noyabr və 16 noyabr tarixli) onların xəbərdarlıqlarına baxmayaraq bölgədə silahlı toqquşmaların davam etdirilməsinin tərəflərin mənafeyinə uyğun olmadığı və Sülh konfransının işinə xələl gətirə biləcəyi göstərilir, ümumi səciyyəli tövsiyyələr verilirdi. Reyin birinci teleqramında Zəngəzur ətrafında cəmləşən Azərbaycan qoşunlarının başladıqları hərbi əməliyyatların (günah, göründüyü kimi, əks tərəfin üzərinə atılır) dərhal dayandırılması tələb edilir, ikincisində isə respublikaların hökumət başçıları məsələlərin dinc yolla həlli məqsədilə onun yanında noyabrın 20-də konfrans keçirmək üçün Tiflisə dəvət olunurdu.

N.Yusifbəyovun Uordrop və Reyin teleqramlarına cavablarından (1919-cu il 17 noyabr tarixli, 7517 və 7519 saylı) [SSRİ-də vətəndaş müharibəsi tarixi, 1922, c.3, s.65] göründüyü kimi, müttəfiqlərin nümayəndələrinin qaldırdıqları məsələlərlə bağlı ADR hökuməti tərəfindən prinsipial və eyni zamanda da işgüzar mövqe tutulmuşdu. Yəni, Yusifbəyov vaxtı ilə Tomson və Haskel tərəfindən Zəngəzurla bağlı, əvvəldə sadaladığımız, mülahizələri və dəlilləri bir daha xatırlamaqla yanaşı bölgədə Azərbaycan ordusu tərəfindən heç bir hərbi əməliyyatlar aparılmadığını, Tiflisdə keçirilməsi məsləhət görülən iki və çoxtərəfli müzakirələrdə iştirak edəcəyini bildirmişdi.

Yaranmış vəziyyət, habelə Rey və Uordropun teleqramlarında qaldırılan məsələlərlə bağlı ADR Dövlət Müdafiə komitəsi 1919-cu il noyabrın 16-da öz iclasında müvafiq müzakirələrdən sonra Zəngəzurdakı şəraitə dair əsl həqiqətləri bir daha Qərb nümayəndəliklərinə çatdırmağı və noyabrın 20-də konfrans keçirilməsini vacib saydı [Paşayev, 2007 s.4]. Müəyyən məsləhətləşmələrdən sonra N.Yusifbəyov Paris Sülh konfransındakı

nümayəndə heyətinin üzvü M.H.Hacınski və Gürcüstanın Bakıdakı səfiri Alşibayın müşayətilə norabrın 20-də (19-u da göstərilir) Tiflisə gəldi. Noyabrın 20-22-də Azərbaycan və Ermənistan nümayəndə heyətləri (ikinciyə Xatisyan başçılıq edirdi) arasında aparılan ikitərəfli, birbaşa (Reyin təklifi ilə) danışıqlar Zəngəzurda hərbi əməliyyatların dayandırılması məsələsinin hissələri və əsas müddəaların ifadə formullarında ciddi fikir ayrılıqlarını aşkarladı. Belə olduqda tərəflər baş tutmayan konfransın çağırılmasına zəmin yaratmaq və s. məqsədlərlə noyabrın 22-də öz təkliflərini Reyə verib ondan hakimlik funksiyasını öhdəsinə götürməyi xahiş etdilər.

Qeyd edək ki, Tiflisdəki görüş və müzakirələr, onların gedişində ortalığa çıxan fikir ayrılıqları müxtəlif dairələrdə, xüsusilə də erməni mətbuatında rəngarəng mövqe və rəylər yaratdı. Hələ bu danışıqların ərəfəsi və gedişı zamanı da daşnak qəzetləri tərəfindən qərəzli təbliğat işi daha da genişləndirilmişdi. “Aşxatavor” qəzeti digər erməni ideoloji təsir vasitələri və diplomatik - siyasi qurumları ilə birlikdə Qərb dövlətlərini də ikitərəfli mübahisələrə qoşduğu halda indi Reyin məsələlərə müdaxiləsindən qayğılanırdı. Erməni tərəfinin mübahisəli məsələləri çoxdan danışıqlar yolu ilə həll etmək istədiyini, Azərbaycan rəhbərliyinin isə konfransın keçirilməsinə razılıq verməklə yanaşı Zəngəzura hücum etdiyini yazan qəzet ADR hökumətinin bu bölgəni özünün mübahisəsiz ərazi sayması və buna görə də heç bir müzakirələrin obyekti ola bilməməsi mövqeyindən xeyli narahat olmuşdu.

Müəyyən əlavə görüş və müzakirələrdən sonra 1919-cu il noyabrın 23-də amerikalıların vasitəçiliyi ilə Azərbaycanla Ermənistan arasında saziş imzalandı. Sazişə Azərbaycan və Ermənistan hökumətlərinin başçıları N.Yusifbəyov və A.Xatisyan, habelə təminatçı sifətilə ABŞ nümayəndəsi, müttəfiqləin Ali komissarının müavini C.Rey və Gürcüstanın Xarici İşlər naziri E.Gekeçkori qol çəkdilər. Beş maddədən ibarət olan bu sazişdə aşağıdakı şərtlər razılaşdırılmışdı:

1.Ermənistan və Azərbaycan hökumətləri hazırda baş verən toqquşmaları dayandırmağı və yenidən silahın gücünə əl atmamağı öhdələrinə alırlar.

2.Ermənistan və Azərbaycan hökumətləri Zəngəzura gələn yolların düzəldilməsi və açılması, onlarla dinc hərəkət üçün təsirini tədbirlər görülməsini razılaşdırırlar.

3.Ermənistan və Azərbaycan hökumətləri sərhədlər haqqında məsələlər də daxil olmaqla bütün mübahisəli məsələri dinc sazişlər yolu ilə həll etməyi öhdələrinə götürürlər. Dinc saziş əldə etmək qeyri-mümkün olduğu halda hər iki hökumət üçüncü tərəf - münsiflər məhkəməsi sifəti ilə bitərəf şəxs

seçməyi və onun qərarlarını məcburi qəbul etməyi razılaşdırırlar; hazırki dövrdə belə bir bitərəf şəxs kimi polkovnik Rey tanınır.

4.Erməni-azərbaycanlı konfransını 1919-cu il noyabrın 26-da Bakıda açmaq qərara alınır.

5.Bu saziş imzalandığı gündən həqiqi sayılır və respublikaların parlamentləri tərəfindən təsdiq olunduğu vaxtdan isə qüvvəyə minir.

Qeyd etmək lazımdır ki, saziş müvəqqəti xarakter daşıyırdı. Çünki yalnız qarşıdakı erməni-azərbaycanlı konfransı iki dövlət arasındakı mübahisəli məsələlərin bütün kompleksini və hissələrini həmin sazişə uyğun surətdə həll etməli idi. Onun nəticələrinə gəldikdə isə, əvvələn, bu akt Azərbaycan tərəfi üçün heç də faydalı olmadı, əksinə, onun siyasi-hərbi mənafe və mövqelərinə xələl gətirdi. O öz məzmunu etibarı ilə mövcud vəziyyətdə elə bir ciddi dəyişiklik yaratmadı, mübahisəli ərazi məsələlərini də həll etmədi və iki respublika arasındakı ixtilafların gələcək həlli üçün dəqiq və aydın prinsiplər müəyyənləşdirə bilmədi;əslində bu “Status quo” demək idi.

“Азербайджан” qəzeti [Rüstəmli, 2005, s.3] bu müqaviləni səciyyələndirərkən və qiymətləndirərkən bəzi məsələlərin mahiyyətini düzgün aşkarlamağa müvəffəq olsa da sadəlövhlüyə və tələskənliyə yol verdiyindən müəyyən səhv nəticələr çıxarmışdı. Onun baş məqalə səciyyəli bir materialında 23 noyabr aktının Ermənistanla Azərbaycan arasındakı münasibətlərdə yeni dövr üçün zəmin hazırlayacağı, Güney Qafqaz xalqlarının gələcək birgə yaşayışının xarakterinə mənəvi cəhətdən təsir göstərmək baxımından çox əhəmiyyətli olacağı yazılırdı. Burada həmçinin deyilirdi ki, bu saziş xalqların sağlam prinsiplərinin düşmənçilik hissləri üzərində üstünlük qazandığı ilk tarixi nümunədir və o hər iki xalqın həyatında həqiqi yeni eranın başlanması üçün bir hədd ola bilər.

İkincisi, və ən əsası isə, Azərbaycan hökuməti bu müvəqqəti sazişə inanaraq tezliklə öz hərbi hissələrini Zəngəzurdan çıxardı. Bu işdə Qarabağda olduğu kimi, Zəngəzurda da vəziyyətin onun xeyrinə olmayan tərzdə dəyişəyəcəyini görən Ermənistan hökumətinin “hərbi əməliyyatları” dayandırmaq üçün Azərbaycana təsir göstərilməsi məqsədilə Gürcüstana, Uordropa və Reyə müraciətləri də öz mənfi rolunu oynadı. Onların N.Yusifbəyova müvafiq müraciətlərini müzakirə edən Dövlət Müdafiə Komitəsi münasibətləri kəskinləşdirməmək niyyətilə, lakin Zəngəzurun Azərbaycanın tərkib hissəsi olmasına dair mövqeyində möhkəm dayanmaqla qoşunları bölgədən müvəqqəti uzaqlaşdırdı (ADR XİN-i bu barədə Paris konfransındakı nümayəndəliyə xüsusi məlumat da çatdırdı) [SSRİ-də vətəndaş müharibəsi tarixi, 1922, s.96]. Bundan istifadə edən Ermənistan isə həmin sazişi pozaraq özünün əlavə nizami qoşun hissələrini dərhal Zəngəzura

yeritdi, erməni hərbi qüvvələri tərəfindən Zəngəzurun və Dərələyəz mahalının dinc müsəlman əhalisinə divan tutuldu.

Üçüncüsü, 1919-cu ilin dekabrında keçirilən erməni - azərbaycanlı konfransının uğursuzluğu, daşnak silahlı qüvvələrinin hərbi əməliyyatları genişləndirmələri, amerikalıların 1920-ci ilin əvvəlində regionu tərk etmələri də Azərbaycanın həmin sazişə bəslədiyi ümidlərin boşa çıxmasına təsir göstərdi. Beləliklə, bu saziş ermənilərin diplomatik oyunu olduğundan nəinki regionda sülhü və əmin-amanlığı təmin edə bilmədi, əksinə, iki dövlət arasında siyasi ziddiyyətlər və hərbi münaqişə daha da gərginləşdi.

Müvəqqəti sazişə dair gəldiyimiz nəticələrin konkret açıqlanması və bunların elə müqavilə imzalandıqdan dərhal sonra baş verən hadisələrlə də təsdiqləndiyini sübuta yetirmək üçün bir sıra məsələlərin araşdırılması zəruriyyət təşkil edir. 23 noyabr sazişindən sonrakı ilk günlərdən başlayaraq ermənilər Zəngəzurda hərbi əməliyyatları yenidən genişləndirdilər. Noyabrın sonları - dekabrda bölgənin azərbaycanlı əhalisi üçün xüsusilə ağır və gərgin keçdi. Erməni nizami silahlı qüvvələri 1919-cu il noyabrın 26-da bəzi sənədlərdə [Azərbaycan” qəzeti, 1919, no.185]. Zəngəzur qəza rəisinin 24 noyabr tarixli, 2809 saylı məlumatında hətta ayın 23-ü göstərilir) Oxçu, Şabadın, Pirdavdan, Atqız kəndlərinə qarşı çox qəddarlıqla aparılan hərbi əməliyyatlara başladılar.

Artıq bir ilə yaxın müddət ərzində ermənilərin mühasirəsi şəraitində yaşayan Oxçudərəsi (ətraf ərazidəkilərlə - Gığıdərəsi və s. birlikdə 24 kənd) əhalisi onları gözləyən təhlükə barədə dəfələrlə Qarabağ və Zəngəzur general qubernatorlarına, rəsmi Bakıya müraciət etmişdilər. Onların Zəngəzur general qubernatoruna müraciətində bu kəndlərin çıxılmaz vəziyyətdə olmaları, ermənilərin toplar və pulemyotlarla hücuma hazırlaşdıqları, xilas edilmələri üçün yardım göstərilməsi, ilk növbədə gülə və zabitlər göndərilməsi xahiş olunur, əks təqdirdə nicat yolunun yoxluğundan öz məskənlərini boşaldacaqları çatdırılırdı. S.Cəmillinski isə Amerikanın nümayəndəliyi tərəfindən ermənilərə şifahi və yazılı surətdə hərbi əməliyyatların dayandırılmasının tapşırıldığını, azərbaycanlılara toxunmayacağını çatdırmaqla onları sakitləşdirməyə çalışmış, həm də bədxah qonşularla birtəhər yola gedib hücumlar etmələrinə bəhanə verməməyə çağırmışdı.

Bu və digər tədbirlərin də köməyi və təsiri olmadığından əvvəlcə Oxçudərəsi, sonra isə Gığıdərəsi kəndlərinin əhalisi ermənilərin vəhşilikləri və digər zorakılıq hərəkətlərinə məruz qalmışdılar. Bütün bunlar haqqında isə M.Cabbarovun başçılığı ilə noyabrın 30-da Naxçıvana gəlmiş Zəngəzurlu nümayəndələr S.Cəmillinskiyə ətraflı məlumat [Eloğlu, 1992, s.58]

vermişdilər. Həmin hadisələrin bilabasitə şahidlərindən əldə etdiyimiz faktları təsdiqləyən bu məlumatdan aşağıdakələr aydın olur:

1919-cu il noyabrın 19-da Meğri və Qafan rayonları erməni hissələrinin komandanı Baronyantsın şifahi xahişi və yazılı müraciətinə əsasən "danışıqlar və mehriban qonşuluq münasibətləri yaratmaq"adı altında ətraf müsəlman kəndlərinin nümayəndələri Panısa dəvət edildilər. Müsəlman nümayəndə heyətini Panısda həbsə alan ermənilər silahı təhvil verərək təslim olmaq və onların hakimiyyətini tanımaq təklifi ilə həmin kəndlərin icmalarına xüsusi məktub göndərdilər.

Noyabrın 19-da gündüz 40 süvari ilə Oxçuya gələn komissar Hamazaspın ardınca 200 əsgər kəndi mühasirəyə almışdılar. Duz çörəklə qarşılanan və nahara qonaq edilən ermənilər əhalini onların hökumətinə sədaqət andı içmələri bəhanəsi ilə karvansaraya və heyətə toplayıb qırmışdılar. Ümumiyyətlə isə mahalın ən iri kəndlərindən olan Oxçunun bütün əhalisindən təxminən böyüklü-kiçikli 1400 nəfərə qədəri məhv edilmiş, sənəddən göründüyü kimi, əvvəlcədən kəndi tərk edən daha 12-13 nəfər (yalnız 133 nəfərin siyahısının tərtib edilməsinin mümkün olduğu da göstərilir) [Seyidov, 2008, s.5], bizcə isə, şifahi tarix materiallarına görə bir qədər çox adam qurtula bilmişdi. Bəzi sənədlərdə [ARDA: f.11, siy.2, iş.791, vər.92. s.25] bu kənddən yalnız 4-5 nəfərin xilas olmasının göstərilməsi həqiqətə uyğun deyildir.

Digər erməni silahlı dəstələri tərəfindən Pirdavdan (burada da əkin sahələrinin və otlaq yerlərinin sərhədlərinin müəyyənləşdirilməsinə dair sənədlərə qol çəkilməsi adı altında kişiləri bir evə yığıb güllələmişdilər) və Şabadın kəndlərində aparılan qəddar əməliyyatlar nəticəsində çoxlu adam qırılmış, sənədlərə əsasən Şabadından 8 kişi və 7 qadın (yenə də şahidlərin məlumatlarına görə bir az çox) xilas olmuşdu. Atqız kəndinin sakinləri isə qaçsalar da Ordubadda və Gığıdərəsinə çatanadək yollarda 167 nəfər qadın və uşaq soyuqdan ölmüşdü. Ümumiyyətlə isə, arxiv sənədlərinə görə dağıdılan 4 kəndin (Oxçu, Pirdavdan, Şabadın və Atqız) 1000 nəfər əhalisindən yalnız 216-sı sağ salamat gəlib Ordubadın Dırnıs, Dəstə və s. kəndlərində yerləşmişdi.

Oxçudərəsi kəndlərini dağıdaraq əhalisini qovan ermənilər Girətavə 6. Azərbaycanlı yaşayış məskənlərni mühasirəyə alıb, bir tərəfdən Ordubadın Urmus, Parağa, Çənənəb, Bist kəndlərinə aparan yolları tutmaqla faktiki olaraq onlarla birləşdilər. Sonra Yuxarı və Aşağı Əylis, Danakert kəndlərindəki daşnak silahlı qüvvələrinə qatışmağa hazırlaşdılar, digər tərəfdən isə Gığıdərəsi üzərinə yeridilər. Gığıdərəsi və Qafan rayonları sakinlərinin dekabrın 3-də Naxçıvana yetişən məktubunda ermənilərin artıq

onlar üzərinə də hücumlara başladıqları və qızğın döyülərin getdiyi xəbər verilir, yardım və güllə göndərilməsi xahiş olunur, bunlarsız məğlubiyyətin qaçılmazlığı bildirilirdi ["Azərbaycan" qəzeti, sentyabr 1919].

Zəngəzurun Oxçu və Gığı dərələri kəndlərinin Azərbaycanlı əhalisinin bu cür acınacaqlı aqibətinin səbəblərini araşdıran S.Cəmillinski bu qurbanları: 1) şəxsən ona; 2) Azərbaycan və Ermənistanda olan amerikalı nümayəndələrə, onların barışdırıcılıq missiyalarına; 3) azərbaycanlılarla həmişə alçaqcasına və qeyri- insani rəftar edən allahsız və namərd erməni qonşulara inanmaqda təqsirləndirirdi. Onun fikrincə bu əhalinin orada qüvvətli düşmən qarşısında azlıqda qalmasının kökünü heç də camaatın özündə deyil, amerikalı nümayəndələrin Ermənistanda olmalarına inanaraq kömək göndərməməyimizdə, onlara ermənilər tərəfindən toxunulmayacağını təlqin etməkdə axtarmaq lazımdır. Paris konfransına və Delliyə müraciətində S.Cəmillinski ermənilərin bu iblisanə və insanlığa yaraşmayan hərəkətlərinə diqqət yetirilməsini, onların vəhşiliklərinin qarşısını ala biləcək tədbirlərin görülməsini xahiş edir və hələ də buna inandığını (öz-özünə zidd gedərək) bildirirdi.

ADR hökuməti sazişdən sonrakı ilk vaxtlarda baş verən hadisələr, yəni Ermənistan tərəfinin razılaşmaya məhəl qoymadan Zəngəzurda davam etdirdiyi irimiqyaslı hərbi və "etniki təmizləmə" əməliyyatları barədə həm rəsmi İrəvan, həm də Qərb dövlətlərinin regiondakı nümayəndəlikləri qarşısında məsələlər qaldırdı. ADR XİN-in Ermənistanın müvafiq nazirliyinin rəhbərliyinə verdiyi 1919-cu il 29 noyabr tarixli (4798 saylı) notada məlum 23 noyabr sazişinə əsasən iki dövlətin qoşunları arasında hərbi əməliyyatların dayandırmalı və bütün mübahisəli məsələlərin ikitərəfli konfransın müzakirəsinə verilməli olduğu xatırlanılırdı. Burada habelə erməni hərbi hissələrinin sazişə məhəl qoymayaraq Zəngəzurda məlum hadisələri törətmələri, habelə Dərələyəz qəzasında da xeyli kəndi dağıtmaları bildirilir, bu halların qarşısının alınması tələb olunurdu [Eloğlu, 1992, s.87].

Ermənistan xarici siyasət idarəsinin rəhbərliyi 1 dekabr tarixli, 5135 saylı cavab notasında isə həmişə olduğu kimi məsuliyyətdən boyun qaçırır, Zəngəzurdakı son hadisələr barədə məlumatı olmadığını, oraya heç bir qoşun hissəsi göndərmədiyini, dağıdılmaları haqqında məlumat verilən kəndlərin hərbi xəritədə göstərilmədiyini, hazırda qəzada tam sakitlik yarandığını bildirirdi. Dekabrın lap əvvəlində N.Yusifbəyovun qəbulunda olan Bekzadyan dağıdıldıqları qeyd olunan kəndləri və digər yaşayış məntəqələrini xəritədə tapmadığını söyləmişdi [ARDA: f.894, siy.7, iş.21, vər.53. s.6].

Daha sonra Ermənistanın Azərbaycandakı diplomatik nümayəndəliyinin informasiya şöbəsi "Азербайджан» qəzetinin "Zəngəzurda" adlı yazısında [ARDA: f.894, siy.10, iş81, vər.10. s.72] getmiş materiallara, yəni erməni nizami hissələrinin bölgədəki son hərbi əməliyyatları və onların dəhşətli nəticələrinə dair faktlara məhəl qoymadan bunları qeyd edirdi: noyabrda Zəngəzurda bu cür hadisələr olmamışdır və yaxud da 23 noyabr sazişinədək baş vermişdir və səfirliyin fikrincə bu hərbi əməliyyatların dayandırılmasına dair məlumatların qəzaya gec çata bilməsilə əlaqələndirilirdi.

**4.Nəticə**

Məqalədə gətirdiyim qısa tarixşünaslıq xülasəsi də bir daha sübut edir ki, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Zəngəzurun 1919-1920-ci illər tarixi indiyədək xüsusi tədqiqatın mövzusu olmamışdır.

Bu tədqiqat məqaləsində qarşıya qoyulan əsas elmi məqsəd XX əsrin 20-ci illərinin təlatümlü hərbi-siyasi hadisələri fonunda Zəngəzur bölgəsinin demoqrafik vəziyyətinin, etnik mənzərəsinin bütöv şəkildə öyrənilməsidir. Elmi məqalədə bu başlıca məqsədə çatmaq üçün aşağıdakı konkret elmi vəzifələrin həllinə nail olunmuşdur:

-Zəngəzur bölgəsinin qədim azərbaycanlı-türk yurdu olmasının əsaslandırılması;

-XX əsrin 20-ci illərində bölgənin coğrafiya və iqtisadiyyatının ümumi mənzərəsinin yaradılması;

-Çarizmin işğalçı siyasətinin Zəngəzurun siyasi durumuna təsirini ardıcıllıqla araşdırmaq;

-XX əsrin 20-ci illərində bütövlükdə Zəngəzurun siyasi, etnik-demoqrafik durumunun təkamülünü izləmək;

-1919-1920-ci illərdə ermənilərin Zəngəzurda törətdikləri soyqırımların nəticələrini araşdırmaq; -böyük dövlətlərin bu dövrdə yürütdükləri bölgə siyasətinin məqsəd və xüsusiyyətlərini dəyərləndirmək;

-1919-1920-ci illərdə ermənilərin Zəngəzur bölgəsində törətdikləri antibəşəri cinayətləri açıb göstərmək;

-AXC hökumətinin və Osmanlı Türkiyəsinin Zəngəzurla bağlı siyasətini incələmək və dəyərləndirmək;

-Zəngəzurda yerli əhalinin erməni-daşnak, bolşevik-rus işğalına qarşı dirənişi, kortəbii də olsa mübarizəsini mənbələrə istinadla tədqiq etmək;

-Zəngəzurun bolşevik-rus, sovet işğalından sonra məruz qaldığı faciələrin nəticələrini işıqlandırmaq.

Bu məqalədə nəticə etibarı ilə Azərbaycan tarixşünaslığında ilk dəfə olaraq 1919-1920-ci illərdə Azərbaycanın Zəngəzur bölgəsində baş verən hadisələr ardıcıl, sistemli şəkildə, arxiv materialları, elmi-tarixi mənbələrə

əsaslanaraq tədqiq olunmuşdur. İlk dəfə olaraq 1919-1920-ci illərdə qədim Azərbaycan torpağı olan Zəngəzurun sovet Rusiyası və SSRİ mərkəzi hökumətinin təzyiqi ilə, Azərbaycan xalqının iradəsinin əleyhinə olaraq, Ermənistan SSR tərkibinə qatılması prosesi təkzibedilməz arxiv sənədləri ilə sübut olunmuşdur.

## ƏDƏBİYYAT

**1.** Rüstəmli, N. (2005). *İtirdiklərimizi qaytarmaq vaxtıdır...* . Respublika. 20 may. s.7.
**2.** *Ermənilər Zəngəzurdan izimizi silirlər*. Mərkəz. 2006. 10 mart. N42. s.10.
**3.** Xəlilzadə, F. (2007). *Zəngəzur həmişə Heydər Əliyevin diqqətində idi*. Azərbaycan. 6 may. N 97. s.2.
**4.** Paşayev, A. (2007). *Erməni xəyanəti: Qarabağ, Zəngəzur, Cavanşir və Cəbrayıl qəzalarında erməni cinayətləri: 1918-1920*. Respublika. 4 dekabr. N 273. s.6.
**5.** Seyidov, T. (2008). *Zəngəzur-əsarətdə qalan yurdum: Tarixi Azərbaycan torpaqlarının Ermənistana verilməsi nə vaxtdan başlayıb?* Azad Azərbaycan. 12 fevral. N 21. s.6.
**6.** ARDA: f. 894, siy. 7, iş 21, vər. 53.
**7.** ARDA: f. 970, siy. 1, iş 161, vər. 1.
**8.** ARDA: f. 11, siy. 2, iş 791, vər. 92.
**9.** *"Azərbaycan" qəzeti*, 30 yanvar, 1919, № 21.
**10.** *"Azərbaycan" qəzeti*, sentyabr, 1919, № 185.
**11.** ARDA: f. 894, siy. 10, iş 81, vər. 10.
**12.** ARDA: f. 894, siy. 1, iş 24, vər. 56.
**13.** *Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti, stenoqrafik hesabatlar*. 1998, Bakı, II c., səh. 879.
**14.** Eloğlu, S. (1992). *Zəngəzur hadisələri*. Bakı, Azərnəşr, 58 s.
**15.** *SSRİ-də vətəndaş müharibəsi tarixi*, 1922, c-3, səh 333.
**16.** *Şərq xalqları jurnalı. 1926.N.1*, səh-49 15. http://www.uludil.gen.az/adr/021.php
**17.** Cavadov, Q. (2000). *Azərbaycanın azsaylı xalqları və milli azlıqları*. Bakı.
**18.** Nərimanoğlu, H. (2015). *Azərbaycanın Zəngəzur mahalının Ermənistana verilməsi prosesi 27-09*. http://karabakhmedia.az/

**19.** *The History of Public and Cultural reformation in the Caucasus and Central Asia (19th- early 20th century).* IICAS-UNESCO. Samarkand, 2013. Kollektiv monoqrafiya. (s.192-275).

**20.** *History of Public and Cultural reformation in the Caucasus and Central Asia (19th- early 20th century).* IICAS-UNESCO. Samarkand, 2013. Kollektiv monoqrafiya. (s.192-275)

**21.** Məmmədov, N. (2007). *Erməni millətçilərinin 1918-1920-ci illərində Naxçıvan, Zəngəzur və Qarabağda qanlı cinayətləri*. Respublika. 21 aprel. N 84. s.6.

**22.** Qafarov, V. (2011). *Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi (1917-1922-ci illər)*, Bakı, səh.164.

## Зангезурская проблема с Арменией в период Азербайджанской Демократической Республики (в 1919-1920 гг.)

**Камран Асадов***

**Абстракт.** Целью статьи является пересмотрение зангезурской проблемы и азербайджано-армянских отношений 1919-1920 гг. и анализирование как исторической, так и современной позиции Азербайджана в системе международных отношений. Интеграция современного Азербайджана в западные страны и международные организации, а также ряд других факторов вызывают необходимость рассмотрения данной проблемы. В период российской оккупации азербайджанский народ подвергался этническим чисткам и территориальной потере. В связи с этим в истории Азербайджана XIX - XX вв. запечатлены моменты угрозы этническому единству, территориальной целостности и потери традиций государственности.

Исторические обстоятельства, депортации и насильственные территориальные чистки, направленные против азербайджанского народа политическим руководством России были разными по форме и одинаковыми по содержанию. Изучение темы в азербайджанской историографии является одним из важных вопросов.

* Очный докторант Института Истории имени Аббасгулу Ага Бакиханова НАНА; Баку, Азербайджан
E-mail: kamranesedov@bk.ru
https://orcid.org/0000-0003-1115-3566

**Цитировать статью:** Асадов, К. [2023]. Зангезурская проблема с Арменией в период Азербайджанской Демократической Республики (в 1919-1920 гг.). *Журнал «Metafizika». 6(2),* с.110-131.

**История статьи:**
*Статья поступила в редакцию: 15.05.2023*
*Отправлена на доработку: 30.05.2023*
*Принята для печати: 06.06.2023*

Историческую литературу, связанную с темой возможно разделить на 5 групп:

1. Исторические работы, связанные с историографией Советского Азербайджана;
2. Научные работы, опубликованные в Азербайджанской Республике;
3. Работы, опубликованные в азербайджанской историографии от восстановления независимости до наших дней;
4. Труды, опубликованные в зарубежной и иммиграционной историографии;
5. Журналисткие статьи и интернет-ресурсы.

Зангезурский вопрос и азербайджано-армянский конфликт периода Азербайджанской Демократической Республики освещен в основном в официальных документах, отчетах, трудах, публицистике и мемуарах основателей республики, в том числе армянской историографии, фальсифицировавшей отношения между Азербайджаном и Арменией в 1919-1920 годах.

**Ключевые слова:** Зангезур, историческая земля Азербайджана, Нахчыван, Карабах

## The Zangezur problem with Armenia during the Azerbaijan Democratic Republic (in 1919-1920)

**Kamran Asadov***

**Abstract.** First of all, this is related to the position of Azerbaijan in the modern system of international relations. Its integration into Western countries and international organizations and other factors make it necessary to re-examine the Zangezur issue in Azerbaijan-Armenia relations between the end of 1919 and 1920.

During the Russian occupation, the Azerbaijani people, who were a source of danger for the statehood of Azerbaijan, were subject to ethnic cleansing and territorial loss. Therefore, the history of Azerbaijan in the 19$^{th}$ and 20$^{th}$ centuries was remembered with threats against the ethnic

* Full-time doctoral student of the Institute of History named after Abbasgulu Aga Bakikhanov of ANAS; Baku, Azerbaijan
E-mail: kamranesedov@bk.ru
https://orcid.org/0000-0003-1115-3566

**To cite this article:** Asadov, K. [2023]. The Zangezur problem with Armenia during the Azerbaijan Democratic Republic (in 1919-1920). *“Metafizika” journal. 6(2),* pp.110-130.

**Article history:**
*Received: 15.05.2022*
*Accepted: 06.06.2023*

unity, territorial integrity and statehood tradition of our people. According to the historical circumstances, the deportations and violent territorial cleansing directed against the Azerbaijani people by the political leadership of Russia were different in form and the same in content.

Studying the topic in Azerbaijani historiography is one of the important issues. Historical literature involved in the study of the topic can be divided into 5 groups:

1.Scientific works published during the Republic of Azerbaijan;

2.Historical works related to the historiography of Soviet Azerbaijan;

3.Works published in foreign and immigration historiography;

4.Works published in Azerbaijani historiography from the restoration of independence to the present day;

5.Journalistic articles and Internet resources.

The Zangezur issue in the Azerbaijan-Armenian conflict during the republic period was mainly given in official documents, reports, works, journalistic writings, and memoirs of the founders of the Republic, including Armenian historiography that falsified the relations between Azerbaijan and Armenia in 1919-1920.

**Keywords:** Zangezur, historical land of Azerbaijan, Nakhchivan, Karabakh

## REFERENCES

**1.** Rustamli, N. (2005). *It's time to get back what we lost...* . Republic. May 20. s.7.
**2.** *Armenians erase our traces from Zangezur.* Center. 2006. March 10. N42. p. 10.
**3.** Khalilzadeh, F. (2007). *Zangezur was always in Heydar Aliyev's attention.* Azerbaijan. May 6. N 97. p. 2.
**4.** Pashayev, A. (2007). *Armenian betrayal: Armenian crimes in Karabakh, Zangezur, Javanshir and Jabrayil districts: 1918-1920.* Republic. December 4. N 273. p. 6.
**5.** Seyidov, T. (2008). *Zangezur - my enslaved homeland: When did the transfer of historical Azerbaijani lands to Armenia begin?* Free Azerbaijan. February 12. N 21. p. 6.
**6.** ARDA: f. 894, siy. 7, work 21, ver. 53.
**7.** ARDA: f. 970, siy. 1, case 161, ver. 1.
**8.** ARDA: f. 11, siy. 2, case 791, ver. 92.
**9.** *"Azerbaijan" newspaper*, January 30, 1919, No. 21.
**10.** *"Azerbaijan" newspaper*, September, 1919, No. 185.
**11.** ARDA: f. 894, siy. 10, case 81, ver. 10.

**12.** ARDA: f. 894, siy. 1, work 24, ver. 56.
**13.** *Parliament of the Azerbaijan Democratic Republic, shorthand reports.* Baku, 1998, II c., p. 879.
**14.** Eloglu, S. (1992). *Zangezur events.* Baku, Azernashr, 58 p.
**15.** *History of the Civil War in the USSR*, 1922, c-3, p.333.
**16.** *Oriental Peoples Magazine.* 1926.N.1, p.-49 15. http://www.uludil.gen.az/adr/021.php
**17.** Javadov, G. (2000). *Few peoples and national minorities of Azerbaijan.* Baku.
**18.** Narimanoglu, H. (2015). *The process of transfer of Zangezur district of Azerbaijan to Armenia 27-09.* http://karabakhmedia.az/
**19.** *The History of Public and Cultural reformation in the Caucasus and Central Asia (19th-early 20th century).* IICAS-UNESCO. Samarkand, 2013. Collective monograph. (pp. 192-275).
**20.** *History of Public and Cultural reformation in the Caucasus and Central Asia (19th-early 20th century).* IICAS-UNESCO. Samarkand, 2013. Collective monograph. (p. 192-275)
**21.** Mammadov, N. (2007). *Bloody crimes of Armenian nationalists in Nakhchivan, Zangezur and Karabakh in 1918-1920.* Republic. April 21. N 84. p. 6.
**22.** Gafarov, V. (2011). *Azerbaijan issue in Turkey-Russia relations (1917-1922 years).* Baku, p.164.